# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 76 min aztəminatlı ailəni əhatə edən Sərəncam



4

№ 237 (7405)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

24 dekabr 2025-ci il.
Qiymәti 60 qәpik

# Qarabağı azad edən və yenidən dirçəldən LİDER!

Prezident İlham Əliyev dekabrın 23-də Xankəndi, Ağdam və Xocalı şəhərlərinə səfər edib




2

# Birlik daralır?



7

## Azərbaycanda təhsil müddəti 4 ildən 3 ilə endirilir?



8

## SƏS Media Qrupunun əməkdaşları təltif edilib



## Təqsirləndirilən ermənilər cinayətlərini etiraf edirlər



5

## Benzema Pikassonun milyon avroluq tablosunu aldı



8

## Stres yeyirik



4

# Qarabağı azad edən və yenidən dirçəldən LİDER!

## Prezident İlham Əliyev dekabrın 23-də Xankəndi, Ağdam və Xocalı şəhərlərinə səfər edib

***Azərbaycan Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində olub. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına qəsəbədə görülmüş işlər barədə məlumat verdi.***

Təmir işlərinə bu ilin may ayında başlanılmış qəsəbədə hazırda 33 yaşayış binası və 1037 fərdi ev mövcuddur. Onlardan 247-si yararsız, 790-ı isə qismən yararlıdır. Bu ilin sonunadək 40, 2026-cı ildə isə 280 evin təmiri nəzərdə tutulur. Artıq 30 evdə təmir işləri başa çatdırılıb. İlkin mərhələdə 30 ailə olmaqla, ümumilikdə 115 sakin müvəqqəti məskunlaşdıqları şəhər və rayonlardan qəsəbəyə - öz dədə-baba yurdlarına qayıdıb.

Qəsəbədə bir sıra sosial infrastruktur layihələri də icra olunub. Fərdi evlərin yerləşdiyi ərazidə su, elektrik və qaz xətləri yoxlanılıb, 2 kilometr yeraltı optik kabel, 510 metr elektrik xətti çəkilib, işıq dirəkləri quraşdırılıb, küçə işıqlandırılması təmin olunub, daxili yollar asfaltlanıb. Eyni zamanda, 60 çarpayılıq 1 nömrəli körpələr evi-uşaq bağçası və 624 şagird yerlik tam orta məktəbdə əsaslı təmir işləri aparılıb. Qeyd edək ki, Prezident İlham Əliyev 2023-cü il oktyabrın 15-də bu qəsəbədə olub. Hazırda qeydiyyatda 674 ailə olmaqla, ümumilikdə 2531 sakin var. Qəsəbə 2023-cü ildə Azərbaycan Ordusunun həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib. Sonra dövlətimizin başçısı Xankəndi şəhəri Kərkicahan qəsəbə sakini Yadigar Əsədovanın evində oldu. Prezident İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində Qarabağ Universitetinin Mühəndislik fakültəsinin binasının təməlini qoyub. Dövlətimizin başçısına binada yaradılacaq şərait barədə məlumat verilib.




Qeyd edək ki, Qarabağ Universitetinin Mühəndislik fakültəsi müasir texnoloji çağırışlara cavab verən, innovasiya və tətbiqyönümlü mühəndis kadrların hazırlanmasını hədəfləyən əsas akademik struktur bölmələrdən biridir. Fakültədə hazırda 19 professor-müəllim, inzibati və texniki heyət üzvü fəaliyyət göstərir. Burada ümumilikdə 314 tələbə təhsil alır.

Fakültədə bakalavriat səviyyəsində elektrik və elektronika, inşaat, mexatronika və robototexnika, logistika və nəqliyyat texnologiyaları, kompüter mühəndisliyi, data analitika və riyaziyyat daxil olmaqla 7 ixtisas üzrə kadr hazırlığı həyata keçirilir. Gələcəkdə mühəndislik istiqaməti üzrə yeni ixtisasların açılması nəzərdə tutulur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərinin Kərkicahan qəsəbə 1 nömrəli tam orta məktəbin binasının əsaslı təmirdən sonra açılışında iştirak edib. Elm və təhsil naziri Emin Əmrullayev dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Prezident İlham Əliyev dünən Xankəndi şəhərində Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin yeni inşa olunmuş binasının açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Xankəndi şəhərində "AzərEnerji" ASC-nin 110/35/10 kV-luq "Xankəndi-1" elektrik yarımstansiyasının açılışında iştirak edib. "AzərEnerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına həyata keçirilmiş işlər barədə məlumat verdi. Dövlətimizin başçısına Qarabağ və Şərqi Zəngəzurda 1000 kilometrədək məsafədə yaradılmış dairəvi elektrik təchizatı sisteminin və istismarının təşkilində innovativ texnologiyaların tətbiqi barədə də məlumat verildi.

Prezident İlham Əliyev dünən həmçinin Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində buraya köçən sakinlərlə görüşüb. Prezident İlham Əliyev sakinləri salamlayıb.

Sakinlər: Salam, xoş gəlmisiniz, cənab Prezident.

Prezident İlham Əliyev: Sağ olun, siz də xoş gəlmisiniz.

Sakinlər: Çox şükür. Allah Sizi qorusun.

Prezident İlham Əliyev: Sağ olun.

Sakin: Allah Sizi qorusun, mənim komandanım, Allah Sizi var eləsin.

Prezident İlham Əliyev: Doğma torpağa 34 ildən sonra qayıdışınız münasibətilə sizi təbrik edirəm. Şükür Allaha, torpaqlarımız işğalçılardan azad olundu və bütün keçmiş köçkünlər yavaş-yavaş öz dədə-baba torpaqlarına qayıdırlar, o cümlədən bu gün Kərkicahan qəsəbəsinə də keçmiş köçkünlər qayıdıb və bu qayıdış prosesi davam edir. Yəni "Böyük Qayıdış" Proqramı bu gün dünya miqyasında ən uğurla icra edilən qayıdış proqramıdır. Siz isə uzun illər çətin şəraitdə, həm fiziki, həm mənəvi əzablar içində yaşamısınız. Artıq buna son qoyuldu və 34 ildən sonra doğma Kərkicahana qayıdırsınız. Böyük xoşbəxtlikdir, həm sizin üçün, həm də xalqımız üçün.

Sakinlər: Allah Sizə ömür versin.

Prezident İlham Əliyev: 1991-ci il dekabrın sonunda Ermənistan dövləti sizi öz dədə-baba torpağınızdan didərgin salmışdı. Dekabrın sonu idi və indi 2025-ci il dekabrın sonunda ədalət burada da, bu torpaqda da tam bərqərar olur. Əlbəttə, təsəvvür etmək çətin deyil ki, bu illər ərzində necə əzabəziyyət içində yaşamısınız. Həm ev şəraiti, həm mənəvi əzab, ədalətsizlik hissi. Amma əminəm, siz də bütün xalqımız kimi inanırdınız ki, gün gələcək və biz buraya qayıdacağıq. İki il bundan əvvəl antiterror əməliyyatı nəticəsində Kərkicahan qəsəbəsi Xankəndi şəhəri ilə birlikdə işğalçılardan azad edilmişdir və artıq burada həyat yenidən qurulur.




Mən oktyabr ayında bu qəsəbəyə gəlmişdim. O vaxt göstəriş verdim ki, evlər, məktəb təmir olunsun, digər lazımi infrastruktur layihələri icra edilsin. Bu gün qəsəbə ilə tanış olarkən görürəm ki, hər şey yüksək səviyyədə təşkil olunub, qəsəbə göz oxşayır. Əlbəttə ki, bu, qəsəbənin, bərpasının birinci mərhələsidir. Çünki işğal dövründə düşmən buranı da yararsız vəziyyətə salmışdı. Evlərin bir çoxunda heç yaşamaq mümkün deyil. Ona görə təqribən iki il də yaxın təmir-bərpa işləri aparılıbdır. İndi isə artıq qəsəbənin bəzi küçələri tam abadlaşdırılıb, evlər tam hazır vəziyyətə gətirilib və burada yaşamaq üçün bütün şərait var.




Sizi bu hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Əminəm ki, burada rahat və firavan yaşayacaqsınız. Əsas odur ki, öz doğma torpağınızdasınız.

Sakin: Allah canınızı sağ eləsin. Sabah ad gününüzdür. Ürəkdən təbrik edirəm.

Prezident İlham Əliyev: Sağ olun.

Kişi sakin: Cənab Ali Baş Komandan, çox minnətdarıq ki, Siz bizi bu gün doğma Kərkicahanımıza qaytardınız, Qarabağımıza qaytardınız. Bu günlərə şükürlər olsun.

*Ardı Səh. 3*



## Azərbaycan və İran Prezidentləri arasında telefon danışığı olub

Dekabrın 23-də İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. İran Prezidenti dövlətimizin başçısını qarşıdan gələn ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni uğurlar və cansağlığı arzulayıb.

Prezident İlham Əliyev göstərilən diqqətə və təbrikə görə minnətdarlığını bildirib.

Məsud Pezeşkian ölkəmizə səfərlərini və dövlətimizin başçısı ilə apardığı müzakirələri məmnunluqla xatırlayıb. Telefon söhbət zamanı 2026-cı ildə təmaslar və Azərbaycan-İran dostluq əlaqələrinin gələcək inkişafına dair fikir mübadiləsi aparılıb.




# Qarabağı azad edən və yenidən dirçəldən LİDER!

## Prezident İlham Əliyev dekabrın 23-də Xankəndi, Ağdam və Xocalı şəhərlərinə səfər edib

Əvvəli Səh. 2

Ağlaya-ağlaya dekabrda tərk etmişdik, indi gülə-gülə qayıdırıq. Allah Sizi qorusun, ailənizi qorusun.

Prezident İlham Əliyev: Sağ olun. Əfsuslar olsun ki, o vaxt Azərbaycan rəhbərliyi sizi qoruya bilmədi, iradə göstərə bilmədi, qorxaqlıq göstərdi və faktiki olaraq işğalla barışmalı oldu. Ondan sonra gələn hakimiyyət vəziyyəti daha da bərbad vəziyyətə salmışdı. Faktiki olaraq Şuşanın, Laçının işğalı Kərkicahanın işğalından təqribən beş ay sonra baş verdi. Ona qədər Xocalı soyqırımı törədildi. O vaxt həm sovet dövründən qalan rəhbərlik, həm də ki, guya xalq hərəkatına aid olan rəhbərlik faktiki olaraq burada yaşayan insanları taleyin ümidinə buraxmışdı. Sizi müdafiə edə bilərdilər, etmədilər. Bəziləri qorxaqlıqdan, bəziləri isə hakimiyyətə gəlmək üçün Azərbaycanda xaos, anarxiya yaratmaq məqsədilə bir çox hallarda xəyanət edərək torpaqlarımızı düşmənə təhvil vermişdi. Ondan sonra hakimiyyətə gələn AXC-Müsavat cütlüyü yarıtmaz və xəyanətkar fəaliyyəti ilə ölkəmizi dərin böhrana salmışdı. Vətəndaş müharibəsi, Kəlbəcərin işğalı və faktiki olaraq Laçın-Xankəndi yolunun itirilməsi - bütün bunlar Ermənistan üçün böyük üstünlük təmin etdi və nəticədə işğala, böyük işğala yol açdı. Biz isə gecə-gündüz öz əzəli torpaqlarımızı düşmənin tapdağından qurtarmaq üçün çalışmışıq, vuruşmuşuq, müharibədə Qələbə qazanmışıq. Düzdür, İkinci Qarabağ müharibəsi zamanı işğala tam son qoymasaq da, heç vaxt şübhə etmirdik ki, tezliklə Xankəndi, Xocavənd, Ağdərə, Əsgəran, Kərkicahan və o vaxt hələ işğal altında olan bütün digər qəsəbə və şəhərlər azad olunacaq. İki il bundan əvvəl cəmi bir neçə saat davam edən antiterror əməliyyatı nəticəsində işğala tam son qoyduq, suverenliyimizi bərpa etdik, işğalçıları torpaqlarımızdan əbədi qovduq və bu gün sülh içində yaşayırıq. Bu elə bir şərəfli tarixdir ki, əminəm, bugünkü nəsil, bundan sonrakı nəsillər bu şərəfli tarixlə əbədi olaraq fəxr edəcəklər.










Sakinlər: İnşallah.

Prezident İlham Əliyev: Sizin buraya qayıtmağınız bir daha göstərir ki, ədalət var, sadəcə olaraq, onu təmin etmək lazımdır. Bir daha sizi təbrik edirəm.

X X X

Prezident İlham Əliyev: İşğal dövründə harada yaşamısınız?

Sakin: Gəncədə yataqxana şəraitində, ağır vəziyyətdə.

Prezident İlham Əliyev: Yataqxanada.

Sakin: Allah Sizə uzun ömür, cansağlığı versin ki, bizi o şəraitdən qurtardınız. Ulu Tanrı Sizi qorusun. ”Dəmir yumruğ”unuz həmişə düşmənin başının üstündə olsun. Allah qolunuza qüvvət versin.

Sakinlər: Amin.

Prezident İlham Əliyev: Sağ olun.

Qadın sakin: Allah bütün şəhidlərimizə rəhmət eləsin. Əvvəlki müharibədə və axırıncı müharibədə zəhməti olanlara, qazilərimizə cansağlığı versin. Amin.

Prezident İlham Əliyev: Siz harada yaşayırdınız, Gəncədə?

Qadın sakin: Yox, Goranboyun Meşəli qəsəbəsində. Bir dəfə orada məskunlaşdırmısan bizi, indi də burada evlə təmin etmisən. Allah sənə dəyməsin.

Kişi sakin: Çox sağ olun, cənab Prezident. Siz ki bu tarixi günü bizə yaşatdınız, Allah Sizdən razı olsun, ailənizi qorusun.

Sakinlər: Amin.

Prezident İlham Əliyev: Sağ olun. Sizə cansağlığı, xoşbəxt həyat arzulayıram. Bir daha təbrik edirəm.

Sakinlər: Çox sağ olun, cənab Prezident.

Prezident İlham Əliyev dekabrın 23-də Xocalı rayonunun Ballıca kəndində ”Accurate Az” MMC-nin ofis mebelləri və mebel aksesuarlarının istehsalı müəssisəsinin açılışında iştirak edib. İqtisadiyyat naziri Mikayıl Cabbarov və ”Accurate Az” MMC-nin təsisçisi İlkin Abuşov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdilər.

Bildirildi ki, müəssisə Türkiyə, İsveçrə, Almaniya, İtaliya, Çin və Yaponiyanın qabaqcıl texnologiya və avadanlıqları ilə təchiz olunub. Burada ildə 20 çeşiddə 240 min ədəd ofis mebeli və 4 milyon ədəd mebel aksesuarı istehsal ediləcək. Məhsulların 60 faizi ixraca, 40 faizi daxili bazara yönəldiləcək. Xammaldan hazır məhsula qədər ofis mebeli istehsalının bütün mərhələləri müəssisədə həyata keçiriləcək. Layihənin ümumi dəyəri 20 milyon manat təşkil edir ki, bunun reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 7 milyon manat güzəştli kredit verilib. Müəssisə, həmçinin işğaldan azad edilmiş ərazilərdə sahibkarlar üçün tətbiq olunan güzəşt və stimullardan yararlanıb.

Prezident İlham Əliyev dekabrın 23-də Ağdam Sənaye Parkında ”Saloğlu Qarabağ” MMC-nin istehsal müəssisəsinin təməlini qoyub. ”Saloğlu Qarabağ” MMC-nin təsisçisi Tacəddin Mustafayev dövlətimizin başçısına yeni yaradılacaq müəssisə haqqında məlumat verdi.

Bildirildi ki, müəssisə Ağdam Sənaye Parkında 1 hektar ərazidə yaradılacaq. Burada mebel, o cümlədən müxtəlif çeşiddə qonaq və yataq otağı dəstləri, yumşaq və metal mebel aksesuarlarının istehsalı üzrə zavodun qurulması nəzərdə tutulur. İstehsal prosesində Türkiyə, Almaniya və Çin texnologiyalarından istifadə olunacaq. Zavodun istehsal gücü illik 4 min dəst mebel və 6 min ədəd metal mebel aksesuarı olacaq. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. İnvestisiya dəyəri 8 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən güzəştli kredit ayrılması nəzərdə tutulub. Müəssisə sənaye parkının rezidentlərinə verilən bütün vergi və gömrük güzəştlərindən yararlanacaq. Burada 50 nəfərlik daimi iş yerinin yaradılması planlaşdırılır.

Prezident İlham Əliyev dünən Ağdam Sənaye Parkında ”Construction” MMC-nin metal elektrik dirəklərinin istehsalı müəssisəsinin açılışında iştirak edib. ”Construction” MMC-nin təsisçisi Nurlan Abbasov dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi.

Bildirildi ki, Sənaye Parkının 1 hektarlıq ərazisində yerləşən müəssisədə istehsal Çin texnologiyası əsasında qurulub. Zavodun metal elektrik dirəkləri üzrə illik istehsal gücü 7 min 200 ton təşkil edir. Məhsullar həm daxili bazarın tələbatını ödəyəcək, həm də ixrac ediləcək. İnvestisiya həcmi 2,96 milyon manat olan müəssisədə 32 daimi iş yeri yaradılıb.

# 76 min aztəminatlı ailəni əhatə edən Sərəncam

***Son 22 ildə Azərbaycan Prezidenti İlham Əliyevin sosialyönümlü siyasətinə uyğun olaraq, həyata keçirilən ardıcıl tədbirlər, mühüm sosial-iqtisadi nəticələrə yönələn proqramlar ölkədə rifah halının mütəmadi yaxşılaşmasına imkan verməklə, əhalinin aztəminatlı təbəqəsinin ümumi əhali nisbətində xüsusi çəkisinin əhəmiyyətli şəkildə azalmasına, yoxsulluğun 5 faizə düşməsinə səbəb olub.***



Bu dövrdə əhalinin sayının artmasına, əmək bazarına daxil olan işçi qüvvəsinin ildən-ilə çoxalmasına baxmayaraq, dövlət məşğulluq siyasətinin gücləndirilməsi, yeni iş yerlərinin açılmasının davamlı xarakter alması, aktiv məşğulluq tədbirlərinin geniş miqyas alması nəticəsində işsizliyin kəskin şəkildə azalaraq 5 faizə düşməsinə, əmək bazarında sabitliyə nail olunub. Bu gün Azərbaycan Avropa və MDB məkanında ən aşağı işsizlik göstəricisinin olduğu ölkələr sırasındadır.



## 200 MANAT MƏBLƏĞİNDƏ BİRDƏFƏLİK MADDİ YARDIM

Prezident İlham Əliyevin "Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında" 22 dekabr 2025-ci il tarixli Sərəncamı aztəminatlı ailələrin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət və qayğının növbəti təzahürüdür. Sərəncamda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 2025-ci il 30 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 200 manat məbləğində birdəfəlik maddi yardım verilməsi nəzərdə tutulur. Sənədə əsasən, bu məqsədlə 15,3 milyon manat vəsait ayrılıb. Sərəncam hazırda ünvanlı sosial yardımla təmin olunan 76 min ailəni (335200 nəfər ailə üzvü) əhatə edəcək və birdəfəlik maddi yardım bayram ərəfəsində onların maddi təminatına dəstək olacaq. Birdəfəlik yardımlar ünvanlı sosial yardım alan ailələrin hesablarına köçürüləcək. Ünvanlı sosial yardım proqramı aztəminatlı ailələrin sosial müdafiəsində mühüm önəm kəsb edir. Ödənilən ünvanlı yardımların məbləği davamlı olaraq artır. 2018-2025-ci illər ərzində bu yardımın hər ailəyə düşən orta aylıq məbləği 2,4 dəfə artıb və hazırda 425 manat təşkil edir.

Ünvanlı sosial yardımın təyin edilməsi üçün ehtiyac meyarının həddi isə qeyd edilən dövrdə 2,2 dəfə artırılaraq 285 manata çatdırılıb və növbəti ildə 300 manata çatdırılması nəzərdə tutulub.

Aztəminatlı ailələrin yoxsulluqdan müdafiəsində mühüm rol oynayan ünvanlı dövlət sosial yardımı proqramı da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 oktyabr 2005-ci ildə təsdiq etdiyi və 2006-cı ildən qüvvəyə minən "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanuna əsasən, həmin vaxtdan həyata keçirilir. Bununla bərabər, dövlət başçısının tapşırığına uyğun olaraq, ölkədə aztəminatlı ailələrin sosial müdafiəsində passiv tədbirlərdən aktiv tədbirlərə keçidin təmin olunması, onların sosial yardım proqramından asılılığının aradan qaldırılması, mal və materiallarla təmin edilməklə kiçik ailə təsərrüfatlarını yaratmaları, beləliklə, gəlir imkanlarını artırmaları, kiçik ailə biznesinə başlamaları üçün də müvafiq işlər aparılır. Sosial ödənişlərin ünvanlı və aztəminatlı ailələr üçün daha təsirli şəkildə yönəldilməsi məsələsi dövlətin əsas hədəflərindəndir.

"Ünvanlı dövlət sosial yardımı haqqında" Qanun qəbul edilərək, 2006-cı ilin 1 yanvarından etibarən aztəminatlı ailələrə, yəni orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan ailələrə ünvanlı dövlət sosial yardımının (ÜDSY) təyinatına başlanıb.

## "YERLİ İCRA ORQANLARI DAİM ŞƏHİD AİLƏLƏRİ İLƏ BİR YERDƏ OLMALIDIRLAR"

Xüsusi olaraq vurğulayaq ki, ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğılarının həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onların həyat şəraitinin yaxşılaşmasına, ictimai hüquqlarının bərpa olunmasına şərait yaradılıb. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu şəxslərə mərhəmətli qayğısı hər bir ölkə vətəndaşı tərəfindən təqdirəlayiq hal kimi yüksək qiymətləndirilir. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, "Bütün məsələlərdə, məşğulluq, məişət problemləri, ondan sonra istənilən problem ola bilər insanın həyatında, - bütün dövlət məmurları, mərkəzi, yerli icra orqanları daim şəhid ailələri ilə bir yerdə olmalıdırlar, kömək göstərməlidirlər. Bu, bizim borcumuzdur". Bu dövlət başçısının siyasətinin əsasında ölkənin hər bir vətəndaşına münasibətdə ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiqləyir. Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda döyüşlərdə şəhid olmuş insanların ailələrinin, bu döyüşlərdə əlil olmuş şəxslərin həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində aparılan işlər davam edir. Şəhid ailələrinə və müharibə əlillərinə ayrılan diqqətin nəticəsidir ki, bu gün onların sosial təminatı istiqamətində kifayət qədər tədbirlər reallaşıb. Azərbaycanda müharibə əlillərinə sosial dəstək proqramı həyata keçirilir. Proqramın icrasında müsbət nəticələr əldə olunub, Proqramın icrası işləri ilk gündən operativ və proaktiv təyinat mexanizmi, vətəndaş məmnunluğu prinsipi əsasında aparılıb. Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən, icra olunan yeni sosial dəstək proqramı dövlət başçısının müharibə ilə əlaqədar əlilliyi olan vətəndaşlara xüsusi qayğısının növbəti təzahürüdür.

Dövlətimiz tərəfindən həyata keçirilən sosial dəstək proqramları uğurla icra olunur. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirdiyi kimi, "Mən dəfələrlə demişdim ki, biz ən həssas kateqoriyadan olan insanlara daim diqqət göstərməliyik və Birinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində maddi imkanlar çərçivəsində bunu edirdik. İmkanlar az olanda az edirdik, imkanlar çox olanda çox edirdik, amma edirdik, bu gün də edirik və edəcəyik".

Şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminat proqramı 5 dəfə genişlənib.

Dövlət və cəmiyyət Vətən müharibəsində iştirak edən, qəhrəmanlıqlar göstərən şəhid ailələrinə, qazilərə xüsusi hörmət, məhəbbət bəsləyir, onlara həssaslıqla yanaşır. Ölkə rəhbərliyi tərəfindən qazilərimizə, şəhid ailələrimizə dövlət tərəfindən böyük qayğı və diqqət göstərilir, onların ən kiçik problemlərinə belə həssaslıqla diqqət yetirilir.

Göründüyü kimi, şəhid ailələrinə, qazilərimizə diqqət və qayğı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun mühüm istiqamətlərindən biridir. Bütün görülən tədbirlər respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə yenilməz rəşadət və misilsiz vətənpərvərlik nümunəsi göstərən vətən oğullarımıza və onların ailələrində dövlətin qayğısı və həssas yanaşmasının göstəricisidir.

***Nəzakət ƏLƏDDİNQIZI***



**MƏTANƏT**

# Stres yeyirik

***Bu gün toyuq istehsalının hansı qaydada həyata keçirildiyindən əlbəttə, hər kəsin xəbəri yoxdur. Olanlar isə çox yaxşı bilir ki, biz toyuq əti yeyərkən, əslində stres yeyirik. Nəinki toyuq əti, həmin toyuqların yumurtası da bizə əsl yumurtanın tərkibində olanları deyil, yalnız stres verir.***

Broyler olanda, nə olar ki? Nədir bu heyvanların günahı ki, onları belə şəraitdə saxlayırlar. Toyuğu Allah-təala yaradanda onu çöl-bayır, həyətbaca üçün yaradıb ki, gəzsin, dolansın, həm qidasındakı zəngin elementləri torpağın altından dimdikləsin, həm də təmiz havada yaşasın. Lakin biz insanlar toyuğa Tanrı tərəfindən bəxş olunan həyatı onun əlindən almışıq. Çox toyuq yetişdirmək, çoxlu toyuq əti istehsal etmək üçün böyük şəhərlərin içindəcə toyuqçuluq təsərrüfatları yaratmışıq. Yaradanda nə olar ki, bunu geniş sahədə etmək olmaz? Əlbəttə, olar.

Əvvəl əslində geniş bir ərazidə qurduğumuz bu kimi təsərrüfatlar sonralar tamahımız ucbatından kiçilməyə başlayır. Yəni daha çox toyuq yetişdirmək istəyimiz, tamahımız bu yazıq heyvanların yerini əlindən alır. Bu, o həddə çatır ki, toyuqlar ayaqlarını qoymağa yer tapmayıb, bir-birinin belində dayanırlar.

Hərdən onların həyatı ilə bağlı videolarla rastlaşanda, sözün həqiqi mənasında, çox narahatlıq keçirirəm. Düşünürəm ki, toyuqların da xoşbəxti, bədbəxti olurmuş. Məsələn, kənd toyuqları necə də xoşbəxt yaranmışlar. Yerləri geniş, istədikləri vaxt gəzir, dolaşır, istədikəri vaxt hinə qayıdır, istədikləri vaxt yumurtlayırlar.

Lakin broylerdə Tanrı tərəfindən toyuqlara verilən yumurtlama xüsusiyyətinə də dəyişiklik etmişik. Onların gecə və gündüzünü əllərindən alıb, çaş-baş salmışıq. Gündüz çirkli pəncərələrdən sızan gün işığı, gecələr isə elektrik lampaları bu yazıq toyuqlara işgəncədir. Onlar sahibkarların diktəsi ilə həyatda yalnız gündüz olduğunu düşünür və dayanmadan-durmadan zamansız şəkildə yumurtlayırlar. Nədir, nədir ki, sahibkarlar daha çox yumurta satıb varlansın. Təsərrüfatını daha da genişləndirsin, milyonlarla manat gəlir əldə etsin, toyuqların bədbəxtliyi üzərində özünə səadət qursun. Maşınlarda gəzsin, təmtəraqlı evlərdə yaşasın.

Belədir, bəli, toyuq biznesi quranların hər biri başqalarından fərqli yaşayır. Bunu hamı bilir. Arada isə toyuqların həyatı məhv olur. Onlar dünyaya gəldiklərinə peşman olurlar. Əlacsız qalıb stresdən bir-birinin başını dimdikləyir, al-qana qərq edirlər.

Toyuq biznesi ilə məşğul olanların qurbanı tək toyuqlar deyil, həm də insanlardır. Onların stres altında saxladığı toyuq və onların yumurtalarından istifadə edən insanlar da elə bilməyin ki, toyuq və yumurta yeyir. Onlar yalnız stres yeyirlər. Çünki yediyimiz toyuq və yumurtanın mayası stresdən yoğrulur.

Çox təəssüf ki, belə qorxunc şəraitdə istehsal olunan toyuq əti digər ət növlərindən ucuz olduğu üçün ölkədə minlərlə insanın ən çox istifadə etdiyi qida məhsuludur. Kənd yumurtasını gündüz çıraq işığı ilə axtarmalı olduğumuz bir dövrdə broyler yumurtasını bizə gəzən toyuq, nə bilim ferma toyuğu, bir də broyler toyuğu adı ilə müxtəlif qiymətlərə satan market və mağaza sahibləri də toyuqçuluq təsərrüfatı sahibləri ilə əlbir şəkildə bu "siyasəti" həyata keçirir.

Onlar qazanır: həm toyuqdan, həm yumurtadan. Biz sadə insanlar istə itirirk: həm toyuq, həm də onun yumurtasın yeməklə. Çünki yediyimiz yalnız stresdir. Sonra da deyirik ki, küçədə-bacada, ictimai nəqliyyatda nə üçün insanlar bu qədər əsəbidir; bu uşağa, bu kişiyə, bu qadına söz demək mümkün deyil, o saat özündən çıxır. Əsəbi olacaqlar da, yedikləri stresdir.

# Təqsirləndirilən ermənilər cinayətlərini etiraf edirlər

Dünyanın əksər xalqları və dövlətləri ermənilərin fəaliyyətlərinin əsas xəttinin terror təşkil etdiyini anlayır və bununla bağlı narahatlıqlarını ifadə edirlər. Bu da ondan irəli gəlir ki, əksər dövlətlər və xalqlar erməni terrorundan əziyyət çəkiblər, kütləvi şəkildə insanlar öldürülüb, yaşayış binaları dağıdılıb. Terror deyiləndə ilk olaraq göz önünə erməni gəlir. Terror bugünkü Ermənistanın dövlət siyasətinə çevrilib. 2020-ci il Vətən Müharibəsi dönəmində Ermənistan Azərbaycanın dinc əhalisini terror vasitələri ilə hədəfə çevirmişdi. Ermənistanın terrorçu dəstələri tərəfindən Bərdə, Gəncə, Tərtər, Daşkəsən, Minkəçevir və digər şəhər və rayonlarımız raket atəşinə tutulması nəticəsində onlarla vətəndaşımız həlak oldu, yaralandı. Azərbaycanın magistral yollarına mina yerləşdirməklə Ermənistan neçə-neçə vətəndaşımızın həyatına son qoydu. Bütün bunlara Ermənistanın terrorçu mahiyyətinin sübutudur. 44 günlük Vətən müharibəsinə qədərə görünən ondan ibarət idi ki, Ermənistan cəzalanmadıqca yeni-yeni terror aktları törətməyə, onlarla, yüzlərlə insanın öldürülməsinə çalışır. Təəssüf hissi ilə demək olar ki, Ermənistan kimi terrorçu dövlət öz çirkin məqsədinə nail ola bilirdi. Lakin Vətən Müharibəsi zamanı Ermənistan Azərbaycanın Müzəffər ordusu tərəfindən ciddi şəkildə cəzalandırıldı. Bu zaman Ermənistanın terrorçu hərbi birləşmələri tamamilə məhv edildi, hərbi canilər isə həbs edilərək məhkəmə qarşısına çıxarıldı. Hazırda Qarabağda Ermənistan terrorçu dövlətin əmrlərinə uyğun terror fəaliyyəti göstərən hərbi canilərin Bakı Hərbi Məhkəməsində məhkəmələri keçirilir.





Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi həyatlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

## Sülh və insanlıq əleyhinə cinayətlər

Təqsirləndirilən Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 22-də davam etdirilib. Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub. Növbəti məhkəmə prosesində təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

## Bütün əməliyyatlar Ermənistanın baş qərargahı tərəfindən hazırlanmış planlara uyğun aparılırdı

Məhkəməyə sədrlik edən Zeynal Ağayev bildirib ki, məhkəmə iclası təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilir. Qeyd edilib ki, ötən məhkəmə iclası zamanı fasilə elan olunduğundan təqsirləndirilən David Babayan çıxışını indiki məhkəmə iclasında davam etdirəcək. D.Babayan çıxışında ittiham tərəfinin çıxışında bildirdiklərinə əks dəlillər səsləndirib. O, təqsirləndirilən şəxslərin günahsız olduğunu deyib. "Mən özümü heç bir maddə ilə günahkar hesab etmirəm", - deyə D.Babayan bildirib. O, çıxışında müdafiəçilərə və tərcüməçilərə təşəkkür edib.Təqsirləndirilən Levon Mnatsakanyan son sözünü rus dilində etmək istədiyini deyib. Ona çıxışını rus dilində etməyə şərait yaradılıb.Təqsirləndirilən şəxs deyib: "Qarabağ (qondarma rejimi nəzərdə tutur - red.) Ermənistandan onun təhlükəsizliyinin qarantı kimi çıxış etməyi xahiş etdi və bu dövrdən də təmas xəttində bütün əməliyyatlar Ermənistan Respublikasının baş qərargahı (silahlı qüvvələrin baş qərargahı nəzərdə tutulur - red.) tərəfindən hazırlanmış planlara uyğun aparılırdı. Burada məhkəmə iclasları zamanı qeyd etmişdim ki, mən 1992-ci ildə hərbiyə çağırılmışam. Zabit rütbəmi nəzərə alaraq, məni batalyonun komandir müavini təyin etdilər. Bu vəzifəyə təyin edilmək üçün başqa heç bir şey tələb olunmurdu. Lakin ittiham tərəfi iddia edir ki, məni başqa hansısa parametrlərə görə təyin ediblər".

Təqsirləndirilən şəxs müharibədə onlar tərəfdən muzdluların döyüşməsi barədə ittiham tərəfinin dediklərinə də münasibət bildirib: "Bildiyim qədər onlar muzdlu olmayıblar. Onlar hamısı könüllülər idi və onları heç kəs xidmətə cəlb eləməmişdi, onlara pul verilmirdi".L.Mnatsakanyan məhkəmədə onun əleyhinə ifadə vermiş zərərçəkmiş İlham Məmmədovun dedikləri barədə də danışıb (Xatırladaq ki, İ.Məmmədov oktyabrın 2-də keçirilmiş məhkəmə iclası zamanı ifadəsində Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən döyüldüyünü, işgəncələrə məruz qaldığını, onu döyən zabitlər arasında Levon adlı zabitin xüsusi qəddarlıq nümayiş etdirdiyini deyib. Zərərçəkmiş şəxs dövlət ittihamını müdafiə edən prokurorların suallarına cavabında L.Mnatsakanyanı göstərərək qəddarlıq edən şəxsin o olduğunu söyləyib - red.). Deyib ki, İ.Məmmədova işgəncə verilməyib.

## "Şuşaya hücum hazırlayan silahlı qüvvələrin məsul şəxsi Samvel Babayan idi"

Təqsirləndirilən L.Mnatsakanyan 2020-ci ildə 44 günlük müharibə zamanı Şuşakənddə hərbi hücumun planlaşdırılmasında iştirak etməsi barədə ittiham tərəfinin dediklərini də inkar edib, ümumiyyətlə 2020-ci və 2023-cü ildə heç bir hərbi əməliyyatda iştirak etmədiyini söyləyib. Təqsirləndirilən şəxs deyib: "Bəli, mən həqiqətən orada (Şuşakənddə müşavirə keçirilən məktəbdə - red.) olmuşam. Lakin mən çox gec, müşavirə başladıqdan sonra gəlmişəm. Müşavirəyə mənim aidiyyətim yox idi. Mən ora dəvət olunmamışdım. Həmin məktəbdəki kabinetdə mən ətraf kəndlərin mülki müdafiə qərargahlarının rəhbərləri ilə mülki müdafiə ilə bağlı məsələləri müzakirə edirdim. Əhalinin oradan təxliyə olunmasını danışırdıq. Onlar (müşavirə keçirənlər - red.) isə ora gəlmişdilər və xahiş eləmişdilər ki, iki saatlıq müşavirə keçirmək üçün otaq ayrılsın. Sədr isə onlara həmin kabineti təqdim eləmişdi. Yəni, mənim olmamağımdan istifadə edərək işlətdiyim kabineti təqdim eləmişdi. Mən gələn vaxt artıq orada müşavirə keçirilirdi. Həmin otağa daxil oldum və Artur Ağabekyanla kənarda oturdum. Bu, sadəcə, bir təsadüf idi. Müşavirədən mənə aydın oldu ki, orada üç ehtiyat batalyonu, bir tank batalyonu, bir artilleriya divizyonu döyüş üçün hazırlanıb. Həmin əməliyyat nəticəsində yol bağlanmalı idi. Hansı ki, orada təchizat işləri görülürdü, yəni hərbiçilər təchizatla təmin edilirdilər. Şuşaya hücum hazırlayan silahlı qüvvələrin məsul şəxsi Samvel Babayan idi. Onlar bütün məsələləri müzakirə etdilər. Həmin əməliyyatın vaxtını müəyyən etdilər və çıxıb getdilər. Vaxtı ertəsi gün saat 5-ə təyin etmişdilər. Təşkilatçılar getdikdən sonra iştirakçılar öz narazılıqlarını bildirməyə başladılar ki, hazırlıq işləri tam həyata keçirilməyib, tam hazır deyillər. Onlara vaxt verilməyib ki, bu əməliyyata normal şəkildə hazırlaşa bilsinlər, bu səbəbdən də iştirakdan imtina edirlər. Mən soruşdum ki, nəyə görə onlar bunu indi deyirlər, müşavirə keçirilən vaxt niyə deməyiblər? Onlardan bir cavab ala bilmədim və onların işinə də qarışmadım. Fikirləşdim ki, bu, onların öz işləridir".

Təqsirləndirilən şəxs 2016-cı ildə baş vermiş Aprel döyüşləri barədə danışarkən həmin vaxt "ordu komandanı" (Ermənistan silahlı qüvvələrinin ən böyük birləşməsinin komandiri - red.) olduğunu deyib. O, Aprel döyüşləri ilə bağlı ittiham tərəfinin dəlillərini və zərərçəkmişlərin dediklərini inkar edib, Azərbaycan hərbçilərinin mövqelərinə hücum etmədiklərini deyib. Aparılan açıq məhkəmə prosesində təqsirləndirilən ermənilər cinayətlərini etiraf edirlər. Bu isə Ermənistanın işğalçı, həm də terrorçu dövlət olduğunu bir daha təsdiqləyir.

***İLHAM ƏLİYEV***

# “Vətəndən Vətənə məktublar”

## *Rəna Rzayevanın "Vətəndən Vətənə məktublar" kitabı haqqında*

Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatında yalnız söz ustası kimi deyil, həm də milli düşüncənin, mənəvi müqavimətin və vətəndaş məsuliyyətinin daşıyıcısı olan böyük bir şəxsiyyət kimi tarixə düşmüşdür. Onun poeziyası bədii-estetik dəyərdən kənara çıxaraq ictimai şüurun formalaşmasında, milli kimliyin qorunmasında və azadlıq ideyalarının yaşadılmasında mühüm missiya daşımaqdadır. Bəxtiyar Vahabzadə üçün şair olmaq sadəcə yaradıcılıq aktı deyil, xalq qarşısında vicdan borcu, zamanın suallarına cavab vermək cəsarəti idi. O, sözün gücünü silah, qələmi isə vətəndaş mövqeyinin ifadə vasitəsinə çevirərək ədəbiyyatla cəmiyyət arasında canlı körpü yaratmışdır. Məhz bu baxımdan onun yaradıcılığı şair-vətəndaş anlayışının Azərbaycan ədəbiyyatındakı ən parlaq və prinsipial təcəssümlərindən biri kimi dəyərləndirilir.



**_Şəhla Tahirqızı,_**
**_filologiya üzrə fəlsəfə doktoru,_**
**_dosent_**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ”Bəxtiyar Vahabzadənin 100 illik yubileyinin qeyd edilməsi haqqında” Sərəncamı müasir Azərbaycan dövlətinin mədəni siyasətində söz və mədəniyyət xadimlərinin roluna verilən yüksək dəyərin bariz nümunəsidir.

Bu sərəncamla dövlət başçısı XX əsrin ən böyük Azərbaycan ziyalılarından biri - Xalq şairi, dramaturq, ədəbiyyatşünas və ictimai xadim Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 100 illiyini dövlət səviyyəsində qeyd etməyi qərara almışdır. Belə bir qərarın verilməsi yalnız yubiley tədbirlərinin təşkilinə yol açmaqla məhdudlaşmır, həm də Vahabzadə yaradıcılığının dövlət üçün strateji mədəni və ideoloji əhəmiyyətini rəsmi şəkildə təsdiqləyir.

Sərəncamda vurğulanır ki, Bəxtiyar Vahabzadə mübariz həyatı, vətənə və ana dilinə sonsuz məhəbbəti ilə Azərbaycan ədəbiyyatı və ictimai fikrində parlaq iz qoymuşdur. Onun poetik-fəlsəfi irsi milli mədəni-mənəvi dəyərlərə hörmət, milli azadlıq və istiqlal ideallarına sədaqət hissi ilə zənginləşərək bir neçə nəslin təfəkkürünün formalaşmasına təsir göstərmişdir.

100 illik yubiley tədbirləri çərçivəsində şairin irsinin yenidən nəzərdən keçirilməsi, onun dünya və milli ədəbi kontekstdə tutduğu yerin möhkəmləndirilməsi və müasir cəmiyyət üçün önəmli mesajlarının - vətənpərvərlik, milli şüur və ictimai məsuliyyət kimi dəyərlərin - yeni nəsillərə ötürülməsi baxımından xüsusi əhəmiyyət kəsb edir.

Yubiley tədbirləri konfrans və simpoziumlar, ədəbi-bədii gecələr və çoxsaylı kitabların nəşri ilə yadda qaldı. İşıq üzü görən bu nəşrlər arasında biri daha çox diqqətimizi çəkir. Bu, şairin gəlini, filologiya üzrə fəlsəfə doktoru, dosent Rəna Rzayevanın tərtib etdiyi ”Vətəndən Vətənə məktublar” adlı kitabdır. Rəna xanım kitabın geniş müqəddiməsinin və transliterasiyaların da müəllifidir. Kitabın elmi məsləhətçisi akademik Gövhər Baxşəliyevadır.

”Onun yaradıcılığı Arazın iki sahilində bir-birinə baxan qardaş gözləri kimidir - həsrət dolu, amma ümidli. Onun yaradıcılığında Arazın sahilində həsrət qovrulur, dağlar gur səsli bir himn kimi ucalır. Şairin qələmi yalnız kağıza deyil, yaddaşımıza da yazırdı - kimliyimizi, birliyimizi, sabaha inamımızı”- deyə yazan Rəna xanım oxucuda kitabın hansı nəsnələrdən bəhs edəcəyi haqqında ilkin təsəvvür yaradır.





Azərbaycan ədəbiyyatında ikiyə bölünmüş Azərbaycan mövzusu milli yaddaşın ən ağrılı, eyni zamanda ən müqavimətli qatlarını ifadə edən əsas ideya xəttinə çevrilmişdir. Bu mövzu xalqın tarix qarşısında yaşadığı faciələri, lakin bütün sınaqlara baxmayaraq milli birliyə olan sarsılmaz inamını, ana dilinə və mədəni irsinə sədaqətini bədii düşüncənin mərkəzinə gətirir. Parçalanmış vətən obrazı azadlıq ideyasını, torpaq, dil və kimlik uğrunda aparılan mənəvi və fiziki mübarizəni əks etdirən zəngin ədəbi nümunələrdə öz dolğun ifadəsini taparaq Azərbaycan ədəbiyyatında xüsusi və davamlı bir mövqe qazanmışdır. Bu xüsusda ”ikiyə bölünmüş Azərbaycan” mövzusunun Bəxtiyar Vahabzadə yaradıcılığında da ön planda olduğunu görürük. Rəna Xanım yazır: ”Bəxtiyar Vahabzadə yaradıcılığında o tay Azərbaycanla bağlı əsərlərdə güclü emosional təsir, milli kimlik və azadlıq ideyası ön plandadır.” Bəxtiyar Vahabzadənin poeziyasında Cənub mövzusu sadəcə coğrafi anlayış deyil, milli yaddaşın qanayan yarası, tarixi ədalətsizliyin poeziyaya çevrilmiş fəryadıdır. Şair bu mövzuya müraciət edərkən nə romantik nostalgiya ilə kifayətlənir, nə də siyasi şüarçılığa yuvarlanır.

Onun Cənub haqqında yazdıqları xalqın bölünmüş taleyinin poetik salnaməsidir.

XIX əsrdə baş vermiş tarixi parçalanma - Arazın iki sahilinə ayrılmış Azərbaycan gerçəyi Vahabzadə yaradıcılığında dərin fəlsəfi və emosional çalarlarla təqdim olunur. Şair üçün Araz sadəcə çay deyil; o, bir millətin sinəsindən çəkilmiş sərhəd xəttidir. Bu xətt Vahabzadənin şeirlərində bəzən nalə, bəzən üsyan, bəzən də səssiz qürur kimi səslənir.

Bəxtiyar Vahabzadənin Cənub mövzusunda yazdığı poemalar və şeirlər milli özünüdərk ideyasının formalaşmasında mühüm rol oynayıb. Xüsusilə ”Gülüstan” poeması bu baxımdan Azərbaycan poeziyasının taleyüklü əsərlərindən biridir. ”Gülüstan”da şair 1813-cü il müqaviləsinin yaratdığı faciəni təkcə tarixi fakt kimi deyil, xalqın mənəvi faciəsi kimi təqdim edir. Bu poema sovet ideoloji sərhədlərini aşaraq, milli düşüncənin səsini ucaldan cəsarətli bir sənət hadisəsi idi.

Vahabzadənin Cənubla bağlı şeirlərində Güney Azərbaycanda yaşayan soydaşlarımızın dil, mədəniyyət və kimlik uğrunda mübarizəsi xüsusi həssaslıqla əks olunur. Şair bu insanları ”başqa ölkənin vətəndaşı” kimi deyil, ”yarım qalmış taleyin davamı” kimi görür. Onun poeziyasında Cənub susmur - danışır, soruşur, haqq tələb edir.

Bu əsərlərdə diqqətçəkən əsas cəhətlərdən biri də Vahabzadənin Cənub mövzusunu ümummilli problem səviyyəsinə qaldırmasıdır. O, Cənub dərdini lokal ağrı kimi yox, bütöv Azərbaycanın vicdan məsələsi kimi təqdim edir. Şairin qələmində bu mövzu siyasi sərhədləri aşaraq mənəvi bütövlüyə çağırışa çevrilir.

Bəxtiyar Vahabzadə üçün poeziya yalnız estetik zövq vasitəsi deyil, həm də milli məsuliyyət formasıdır. Cənub mövzusunda yazdığı əsərlər bunun ən parlaq sübutudur. Bu şeirlərdə şair xalqın dilində danışır, xalqın dərdini deyir və xalqın gələcək ümidini qoruyur.

Kitabın geniş müqəddiməsində Bəxtiyar Vahabzadənin Cənub mövzusunda qələmə aldığı poema və şeirləri təhlil süzgəcindən keçirən müəllif mütəfəkkir şairin qələmindən çıxan bu nümunələrin Azərbaycan ədəbiyyatında milli yaddaşın, tarixi ədalət axtarışının və mənəvi bütövlük ideyasının poetik manifesti olduğunu oxucuya çatdıra bilib . Və akademik Nizami Cəfərovun Bəxtiyar Vahabzadə haqqında yazdıqları ilə fikrini daha da qüvvətləndirib: ”Azərbaycanın Şimalı ilə Cənubunun birliyi uğrunda 50-ci illərdən etibarən ardıcıl mübarizə aparmış üç nəfər varsa, biri Bəxtiyar Vahabzadədir; iki nəfər varsa, biri B.Vahabzadədir; əgər bir nəfər varsa, yenə Bəxtiyar Vahabzadədir!”

Kitabın birinci bölümünü tərtibçi-müəllif ”Gülüstan”dan ”İstiqlal”a 40 il uzunluğunda yol” adlandırıb və burada şairin 60-a yaxın Cənub mövzulu poetik nümunəsini toplayıb: ”Aylı gecələr” (poema,1947), ”Cənublu bacıma” (1951), ”Vətəndən Vətənə” (1962), ”Yollar-oğullar” (poema, 1962-63), ”Şəhriyara” (1965), ”Səhəndə məktub” (1968, tam mətn), ”Bakıyla Təbrizin arasındayam” (1969), ”Sahirə cavab” (1971), ”Mərziyə” (poema, 1984), ”Yasəmən üçün” (1989), ”İstiqlal” (1999), ”Artıq zəngə dönüb zəncirin səsi” (2001) və s.

Beləliklə, şeirlərdən də göründüyü kimi, kitabın bu bölümü Bəxtiyar Vahabzadənin Cənub mövzusuna münasibətinin poetik xronikasını yaradır. ”Gülüstan” ağrısından başlayan və ”İstiqlal” ideyasına qədər uzanan bu 40 illik yol şairin milli yaddaş, bölünmüş Vətən, tarixi ədalətsizlik və azadlıq amalına sədaqətinin bədii ifadəsidir. Onun Cənubla bağlı şeirlərində şəxsi hisslə ümummilli taleyin, lirika ilə publisist pafosun, nisgillə ümidin vəhdəti aydın görünür. Vahabzadə bu poetik nümunələrdə yalnız coğrafi sərhədləri deyil, zamanın və siyasi maneələrin çəkdiyi mənəvi sədləri də aşmağa çalışır; Təbrizlə Bakını, Arazın bu tayını o tayı ilə sözün gücü vasitəsilə birləşdirir. Bu baxımdan bölmə, şairin yaradıcılığında Cənub mövzusunun ideya-bədii zirvəsini, onun istiqlal düşüncəsinin poetik yekununu əks etdirən bütöv və təsirli bir sonluq kimi dəyərləndirilə bilər.

Kitabın ”Müsahibə və məqalələr” adlı ikinci bölməsində şairin bir neçə müsahibəsi və ”Dilimiz - ədəbiyyatımız”, ”Rüstəm körpüsü”, ”Dostum Cavad Heyət” və ”Ağır illər nəğməkarı” adlı məqalələri yer alıb.

”Vətəndən Vətənə məktublar” adlanan üçüncü bölmə kitabın ən maraqlı bölməsidir desək, yanılmarıq. Burada doktor Cavad Heyətdən, Laşım Təbrizlidən, Məhəmməd Hüseyn Şəhriyardan, Əhməd Azərludan, Qulamhüseyn Beqdelidən, Hürriyə Xurşudilərdən, Vəhab Mənafi Fəriddən, Pirahi Negabidən, Sönməzdən, Fəraməz Dehqanidən, Mənuçehr Əzizidən və digər güneyli ədiblərimizdən, həmçinin müxtəlif təşkilatlardan Bəxtiyar Vahabzadəyə ünvanlanmış məktubların orijinal şəkilləri və transliterasiyaları yer alır. Qeyd etdiyimiz kimi, transliterasiyaların müəllifi Rəna xanım Rzayevadır.

Kitabın diqqət çəkən məqamlarından biri də burada yer alan şairin özünün və kitablarının arxiv şəkilləridir. Şəkidə fəaliyyət göstərən Bəxtiyar Vahabzadənin ev-muzeyini ziyarət etmiş güney azərbaycanlı Eyyub Poladın, Ehsan Misaginin, Yusif Niyarlının muzeyin xatirə kitabına yazdıqları sözlər də maraq doğurur.

Dünya quru bir səs,
Qəm çəkməyə dəyməz.
Yüz-yüz itən olsun,
Min bir də bitən var.
Şükr eyləyəlim ki,
Bizdən həm əvvəl,
Həm sonra Vətən var.

Azərbaycan ədəbiyyatında ikiyə bölünmüş Azərbaycan mövzusu milli yaddaşın ən ağrılı, eyni zamanda ən müqavimətli qatlarını ifadə edən əsas ideya xəttinə çevrilmişdir. Bu mövzu xalqın tarix qarşısında yaşadığı faciələri, lakin bütün sınaqlara baxmayaraq milli birliyə olan sarsılmaz inamını, ana dilinə və mədəni irsinə sədaqətini bədii düşüncənin mərkəzinə gətirir. Parçalanmış vətən obrazı azadlıq ideyasını, torpaq, dil və kimlik uğrunda aparılan mənəvi və fiziki mübarizəni əks etdirən zəngin ədəbi nümunələrdə öz dolğun ifadəsini taparaq Azərbaycan ədəbiyyatında xüsusi və davamlı bir mövqe qazanmışdır.

Filologiya üzrə fəlsəfə doktoru, dosent Rəna Rzayevanın Bəxtiyar Vahabzadə yaradıcılığına həsr olunmuş ”Vətəndən Vətənə məktublar” kitabı Azərbaycan ədəbiyyatında yalnız bir tədqiqat nümunəsi deyil, milli ruhun, mənəvi bütövlüyün və tarixi yaddaşın dərin məzmunlu bədii-elmi təcəssümüdür. Bu əsər milli birliyin, ana dilinə və mədəni irsə sonsuz məhəbbətin, eləcə də böyük şairin ocağına sədaqətin əbədi rəmzi kimi ədəbiyyatımızda özünə layiqli yer tutacaqdır. Şübhəsiz ki, milli düşüncəyə, Vətən ideyasına və sözün müqəddəsliyinə dəyər verən hər bir oxucu üçün bu kitab təkcə oxunan deyil, həm də mənəvi ehtiyac kimi qəbul ediləcək, öz geniş və davamlı oxucu auditoriyasını tapacaqdır.

# Şəhəri necə salmalı?



Azərbaycan Respublikası Prezidenti İlham Əliyev 2026-cı ilin Azərbaycan Respublikasında "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq mədəniyyəti ənənələrinin yaşadılması, eləcə də ölkədə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədilə təkliflərin bir ay müddətində hazırlanıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi bildirilir. Bu gün bütün dünyada sürətli urbanizasiya, habelə iqlim dəyişikliyi davamlı və iqlimə uyğunlaşan şəhər inkişafına nail olmaq üçün ciddi çətinliklər yaradır. Sürətli urbanizasiya və artan iqlim riskləri fonunda şəhərlərin inkişaf strategiyası bəzən bir çox təzyiqlə üzləşir. İqlimə, şəraitə, yerli şərtlərə uyğun dizayn strategiyalarının vacibliyi həm də dayanıqlılığı təmin edir. Elmi bilikləri, texnoloji innovasiyanı birləşdirərək iqlimə uyğun dizayn edilmiş şəhərsalma həm də enerji səmərəliliyini, məkan rahatlığını və ekoloji göstəriciləri artırır.

Tədqiqatlar göstərir ki, optimallaşdırılmış bina planları, bitki örtüyü ilə örtülmüş şəhər, yaxşı paylanmış yaşıl infrastruktur qızmar yay günlərində enerji tələbatını azaldır ki, bu da enerji qaynaqlarına qənaət etmək deməkdir. Şəhərsalma sadə bir proses deyil, bu həm də memarlıq, nəqliyyat və ətraf mühitin arasındakı inteqrasiyanı asanlaşdırmaq deməkdir. Ümumiyyətlə, yeni şəhər və ya yaşayış məntəqəsi yaradılarkən əsas məqsəd insan üçün rahat, təhlükəsiz, ekoloji və uzunmüddətli dayanıqlı mühit yaratmaq olmalıdır. Buna görə də bir neçə əsas şərt rəhbər götürülür ki, bunlardan birincisi yer seçimi və təbii şəraitdir.

Bu zaman seysmik təhlükəsizlik birinci nəzərə alınacaq şərtdir. Yaşayış zonası salınarkən zəlzələ riski olan zonalar nəzərə alınmalıdır. Relyef və torpaq strukturu təhlükəli olan - sürüşmə, sel, daşqın riski olan ərazilərdən uzaq durmaq vacibdir. İqlim şəraiti uyğun olmalıdır, küləyin istiqaməti, günəşlənmə, temperatur rejimi vacibdir. Vacib olan şərtlərdən biri, hətta birincisi su mənbələridir, xüsusilə içməli su ehtiyatlarının davamlılığı diqqətə alınmalıdır. Şəhərsalmada bir vacib şərt də ekoloji davamlılıqdır. Yaşıl zonaların, parkların, meşə zolaqlarının öncədən planlaşdırılması şəhərin qənaətli enerji sərfiyyatçısı olmasının təməlini qoyur. Şəhərin isti iqlimə meylli olmaması üçün ağac sayının bol olması vacibdir. Bundan əlavə açıq su hövzələri, tullantıların çeşidlənməsi və təkrar emalı sistemi, təbii ekosistemlərə minimum müdaxilə də eko-şəhər yaratmağın vacib şərtlərindəndir.

İqlimə uyğun və dayanıqlı planlamadan bəhs etdik yazımızın girişində, bu ən vacib şərtlərdəndir. Sel və daşqınlara davamlı drenaj sistemi, enerji səmərəli binalar - izolyasiya, günəş panelləri ilə enerjiyə qənaət, habelə iqlim risklərinə adaptasiya olan şəhər həm də təhlükəsiz mühit vəd edir. Şəhərsalmanın bir vacib şərti də nəqliyyat sistemi və hərəkətlilikdir. Piyadalar və velosiped üçün təhlükəsiz yollar, geniş səkilər, ictimai nəqliyyat mərkəzli şəhər planlaması, avtomobil asılılığının azaldılması, parklama sahələrinin balanslı təşkili daha abad bir şəhər deməkdir.

Funksional zonalaşma, yəni yaşayış, iş, təhsil və istirahət zonalarının düzgün bölgüsü də səliqəli şəhər salmağın şərtlərindədir. Bu sistem dünyada "15 dəqiqəlik şəhər" prinsipi adlanır. Yəni yaşadığın ərazinin 15 dəqiqəlik məsafəsində tələbat olan bütün iaşə obyektlərinin olması düzgün salınmış şəhər deməkdir. Əgər məktəb, xəstəxana, mağaza, park kimi yerlərə 15 dəqiqədən uzaq məsafədə yaşayırıqsa biz planlaşdırılmadan salınmış yaşayış məntəqəsində yaşayırıq deməkdir.

Vacib şərtlərdən biri səs-küy və sənaye zonalarının yaşayış məntəqələrindən uzaq yerləşdirilməsi, digər vacib amil də sosial inklüzivlik və rahatlığın təmin olunmasıdır. Əlillər və yaşlılar üçün əlçatan istirahət parkları, ictimai məkanlar, meydanlar, mədəniyyət mərkəzləri də bu rahatlığın bir hissəsidir. İctimai təhlükəsizlik və işıqlandırma sistemləri də şəhərsalmada bərabər paylanmalıdır.

Tikinti normaları və təhlükəsizlik, beynəlxalq tikinti standartlarına uyğunluq, yanğın təhlükəsizliyi, keyfiyyətli və uzunömürlü materiallardan istifadə, tikililərin sıxlığının normativlərə uyğun olması, su və kanalizasiya sistemi, yağış sularının toplanması və yenidən istifadəsi, kanalizasiya və təmizləmə qurğularının işləkliyi, su itkisinin minimuma endirilməsi, gələcək inkişafın və urbanizasiyanın nəzərə alınması, əhali artımı üçün ehtiyat ərazilər, rəqəmsal infrastruktur üçün baza, fövqəladə hallara hazırlıq planları da şəhərsalmanın qızıl qaydalarındandır.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi " istiqaməti çərçivəsində hazırlanıb*

# Birlik daralır?



Vladimir Putin çoxdankı ənənəyə sadiq qalaraq, həmkarlarını Sankt-Peterburqda Avrasiya İqtisadi İttifaqı (AİI) və MDB ölkələrinin Yeni il öncəsi yekun sammitlərinə topladı. Lakin bu dəfə iştirak tam olmadı və siyasi xətaları üzə çıxardı. Moldova Birlikdən çıxmaq istiqamətində durmadan irəliləyir və bu ölkənin prezidenti Maia Sandu 2020-ci ildən sammit görüşlərinə məhəl qoymamaqda davam edir. Azərbaycan Prezidenti İlham Əliyevin də iştirak etməməsi də Rusiya üçün gözlənilməz oldu: Kremlin sahibi ilə planlaşdırılan danışıqlara baxmayaraq, Azərbaycan Prezidenti "iş qrafikini" əsas gətirərək qeyri-rəsmi zirvə görüşünə qatılmadı.

Ali Avrasiya Şurasının dekabrın 21-də keçirilən iclasdan sonra Rimski-Korsakov Konservatoriyasında prezidentlər Sadır Japarov, Emoməli Rəhmon və Şavkat Mirziyoyev Lev Tolstoy adına Beynəlxalq Sülh Mükafatına layiq görülüblər. "Mərkəzi Asiyada sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə mühüm şəxsi töhfəyə görə" mötəbər mükafatı Lev Tolstoy adına Beynəlxalq Sülh Mükafatı münsiflər heyətinin sədri, dirijor Valeri Gergiev təqdim edib.

Xatırladaq ki, üç ölkənin liderləri 30 ildən artıqdır ki, həllini tapmayan və dəfələrlə faciəli toqquşmalara səbəb olan sərhədlərin delimitasiyası və demarkasiyası məsələsini həll etməyə nail olublar. Vladimir Putinin vurğuladığı kimi, sərhəd mübahisələrinin həlli nəinki münaqişələr fəslini bağlayır, həm də "iqtisadi əlaqələrin genişləndirilməsi, infrastruktur layihələrinin başlanması və yeni investisiyaların cəlb edilməsi üçün əlavə imkanlar açır". Bu, onların Mərkəzi Asiyada vəziyyətin sabitləşdirilməsində gördüyü nəhəng işin etirafıdır.

Putin görüş çərçivəsində həmkarları ilə bir sıra ikitərəfli danışıqlara başlayıb. O, Belarus prezidenti Aleksandr Lukaşenko ilə danışıb və Sadır Japarov ilə ikitərəfli məsələləri, o cümlədən ticarət, iqtisadi, maliyyə və miqrasiya məsələlərini müzakirə edib. Bu barədə Kreml danışıqların təfərrüatlarını açıqlamayıb. Bununla belə, ekspertlər hesab edir ki, Qırğızıstan lideri Böyük Britaniyanın Rusiya hökumətinə maliyyə sektorunda yardım göstərməkdə ittiham olunan Qırğızıstan şirkətlərinə tətbiq etdiyi ikinci dərəcəli sanksiyalardan narahatdır.

MDB üçün ilin əsas nəticələrindən biri nüvə sıçrayışı adlanan hadisə olub. Qazaxıstan və Özbəkistanın Rosatom ilə birgə atom elektrik stansiyasının tikintisinə dair qəbul etdikləri qərarlar Birliyin nüvəsini təşkil edən iki əsas regional oyunçunun enerji təhlükəsizliyini əhəmiyyətli dərəcədə gücləndirəcək. Buna baxmayaraq, MDB-nin siyasi konturlarında aydın çatlar yaranıb. Azərbaycanın son sammitdə iştirakdan imtinası ilə yanaşı, Moldova təşkilatdan çıxmaq istiqamətində irəliləməkdə davam edir. 2020-ci ildən Kişinyov MDB görüşlərinə məhəl qoymur və əsas razılaşmaları sistematik olaraq pisləyir. "Dnestryanı Moldova Respublikası"nın "Ali Şurası"nın deputatı Andrey Safonovun sözlərinə görə, bu kurs Rusiya ilə əlaqələri tamamilə kəsməyə yönəlib. Xüsusilə, Kişinyov bu yaxınlarda bir sıra müqavilələrə, o cümlədən MDB üzvü olan dövlətlərin vətəndaşlarının vizasız gediş-gəlişi haqqında sazişə xitam verib. Safonov deyib ki, MDB-nin coğrafiyasının daralmasına baxmayaraq, onun daxilində etibarlı nüvə formalaşır. Dərin işlərlə məşğul olmaq istəməyən ölkələr tərk etdikdə, qalan üzvlər üçün razılaşmalar əldə etmək və birgə layihələrə başlamaq daha asan olur. Bu gün MDB həqiqətən də yaxşı qonşu olmaq və problemləri effektiv şəkildə həll etmək istəyənlər üçün bir məkandır. Buna baxmayaraq, Şimal paytaxtında Yeni il qabağı sammitin diplomatik gündəliyinə Azərbaycan Prezidentinin gəlməməsi ilə düzəlişlər edilib. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bir gün əvvəl Vladimir Putinin İlham Əliyev və Nikol Paşinyanla ayrı-ayrılıqda danışıqlara hazır olduğunu təsdiqləsə də, rəsmi Bakı sonda tədbirə qatılmayıb. Kreml vəziyyəti həddindən artıq dramatikləşdirməməyə üstünlük verib və qəti anlayışla cavab verib. Peskov Yeni il qabağı dövrün ənənəvi olaraq bütün dövlət başçıları üçün sıx olduğunu qeyd edib və Bakı ilə konstruktiv əməkdaşlığın bütün formatlarda davam etdiyini vurğulayıb.

Rusiya tərəfinin açıqlamasına görə, rəsmi səbəb 2024-cü il dekabrın 25-də Çeçenistan səmasında AZAL-a məxsus təyyarənin qəzaya uğraması ilə bağlı problemin həll olunmaması ola bilər. Hadisənin siyasi həllinə cəhd edilməsinə baxmayaraq, Bakı Moskvadan öz məsuliyyətini sənədləşdirməsini və qurbanlar və itirilmiş təyyarə ilə bağlı maliyyə tələblərini tam təmin etməyi gözləyir. Azərbaycanın MDB çərçivəsində münasibətləri digər sahələrdə konstruktiv şəkildə pozula bilərdi. Səfərin qəfil ləğv edilməsinin səbəbi ilə bağlı araşdırmalar davam edir və onun nəticələrinin tezliklə açıqlanması gözlənilir.

Ermənistanla münasibətlərdə də müzakirə tələb edən bir sıra məsələlər yığılıb. İlk növbədə, bu, İrəvanın Avropa İttifaqına doğru getdikcə daha çox meyl etməsi, o cümlədən üzvlük perspektivinin hələ uzaq olmasına baxmayaraq, viza rejiminin sadələşdirilməsi ilə bağlı əlaqələrin intensivləşməsidir. Vladimir Putin üçün ikinci əsas mövzu Nikol Paşinyanın Ermənistanı "yol ayrıc ölkəsinə" çevirmək ideyasıdır. Bu, Ermənistanı Naxçıvan və Türkiyə ilə birləşdirən dəmir yolunun 40 ilə yaxındır fəaliyyətsiz qalan hissəsinin bərpasından gedir. "Tramp marşrutu" və ya "Zəngəzur dəhlizi" kimi tanınan bu marşrut Çin və Avropa İttifaqı tərəfindən fəal şəkildə irəli sürülən ideyanın artıq mövcud olan Orta Dəhlizinin (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) qoluna çevrilmək niyyətindədir. Rusiya bu layihədə (Ermənistan-İran sərhədində və Rusiya Dəmir Yollarının törəmə müəssisəsi tərəfindən idarə olunan dəmir yollarında onun sərhəd mühafizəsinin məsuliyyətinə daxildir) maraqlı olduğunu bildirsə də, müqavilələr üçüncü ölkələrin iştirakını istisna olmaqla, həmin hissənin birgə Amerika-Ermənistan şirkəti tərəfindən tikintisini və istismarını nəzərdə tutur. Bu, həm Moskvada, həm də Tehranda ciddi narahatlığa səbəb olur.

Vladimir Putin, görünür, Nikol Paşinyanın həm Avropa vektoru, həm də "Tramp yolu" layihəsinin icrasının təfərrüatları ilə bağlı konkret açıqlamalar verməsini gözləyir. Maraqlıdır ki, Azərbaycan Prezidenti bu yaxınlarda Ermənistanın 40 ilə yaxın blokadasını xeyli yumşaldaraq, yüklərin öz ərazisindən tranzitinə imkan yaradıb. Azərbaycan neft məhsullarını daşıyan ilk qatar bu yaxınlarda Ermənistana yola salınıb. Azərbaycan Yaxın Şərq üçün tranzit qovşağı rolunu məharətlə icra edir. Doğrudan da, Rusiya prezidenti Vladimir Putin Ermənistanın baş naziri Nikol Paşinyanla Sankt-Peterburqda keçirdiyi görüşdə ilk növbədə iki ölkə arasında nüvə enerjisi və nəqliyyat infrastrukturu sahəsində əməkdaşlığı müzakirə edib. "Yaxşı planlarımız var. Biz enerji, o cümlədən nüvə enerjisini müzakirə etdik. İndi təfərrüata varmayacağıq, lakin müzakirə etmək və danışmaq imkanı var", - Vladimir Putin qeyd edib: "Son görüşümüzdə siz birlikdə işləyə biləcəyimiz müxtəlif məsələləri qaldırdınız. Mən köhnə marşrutların bərpasını və Ermənistanın sərhədlərini açan yeni marşrutların yaradılmasını nəzərdə tuturam".

**V.VƏLİYEV**

SON SƏHİFƏ

SƏS

24 dekabr
2025-ci il

## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC  – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC  0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Azərbaycanda təhsil müddəti 4 ildən 3 ilə endirilir?



“Bakalavr təhsilinin müddətinin 4 ildən 3 ilə endirilməsi artıq bir sıra ölkələrdə uğurla tətbiq olunur və bu model ali təhsilin daha çevik və əmək bazarına yönəlik qurulmasına xidmət edir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Məzahir Məmmədli deyib. Onun sözlərinə görə, xüsusilə Avropa təhsil məkanında gedən islahatlar çərçivəsində bəzi ixtisaslar üzrə təhsil proqramları optimallaşdırılaraq daha qısa müddətdə əsas bilik və bacarıqların verilməsi məqsəd qoyulub: ”Qonşu Gürcüstanda da bu istiqamətdə konkret addımlar atılır, ali təhsil sistemində struktur dəyişiklikləri aparılır və beynəlxalq təcrübə nəzərə alınır.

Təbii ki, dünyada baş verən sürətli qloballaşma və təhsil sahəsindəki inteqrasiya prosesləri Azərbaycandan da yan keçmir. Ölkəmizin ali təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, tələbələrin mobil imkanlarının artırılması və məzunların rəqabət qabiliyyətinin yüksəldilməsi əsas prioritetlərdən biridir. Hazırda ”Elm və təhsil haqqında” qanun layihəsi Milli Məclisdə müzakirə olunur və bu sənəd çərçivəsində ali təhsilin pillələri üzrə mühüm dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Böyük ehtimalla, gələcəkdə bəzi ixtisaslar üzrə bakalavr təhsilinin müddəti 4 ildən 3 ilə endirilə bilər. Bu isə təhsil proqramlarının yenidən formalaşdırılmasını, fənlərin daha məqsədyönlü seçilməsini və praktiki bacarıqlara üstünlük verilməsini tələb edəcək. Eyni zamanda, magistratura və doktorantura pillələrinin müddətinin 1 ilə endirilməsi məsələsi də artıq rəsmiləşmək ərəfəsindədir. Bu dəyişikliklər elmi-tədqiqat fəaliyyətinin intensivləşdirilməsinə, gənc mütəxəssislərin daha tez akademik və peşəkar fəaliyyətə qoşulmasına, ümumilikdə isə təhsil sisteminin daha dinamik və səmərəli olmasına xidmət edə bilər”.

***Arzu Qurbanlı***

# Benzema Pikassonun milyon avroluq tablosunu aldı



Ulduz futbolçu Kərim Benzema şəxsi kolleksiyasını milyon avroluq sənət əsəri ilə zənginləşdirib. QOL.az ”RMC Sport”a istinadən xəbər verir ki, ”Əl-İttihad”ın fransalı hücumçusu dünya şöhrətli ispaniyalı rəssam Pablo Pikassonun 1964-cü ildə çəkdiyi ”Saqqallı kişinin portreti” adlı tablosunu satın alıb.

Məlumata görə, ulduz futbolçu aldığı əsərlə birgə fotosunu sosial şəbəkə hesabında paylaşıb və ”Evə xoş gəldin” şərhini yazıb. Bildirilir ki, sözügedən tablo 2025-ci ilin əvvəlində Nyu-Yorkda art-diler Helli Nahmadın qalereyasında nümayiş etdirilib. Qeyd edək ki, tablonun satış qiyməti rəsmi olaraq açıqlanmasa da, Pikassonun əsərlərinin hərraclarda adətən 1 milyon avrodan yüksək məbləğə satıldığı vurğulanır.

# Mərkəzi Gömrük Hospitalının Əməliyyatxana, Anesteziologiya və Reanimasiya şöbəsində 24/7 rejimində tibbi xidmətlər göstərilir



Mərkəzi Gömrük Hospitalının Əməliyyatxana, Anesteziologiya və Reanimasiya şöbəsində müxtəlif profilli xəstələrə 24/7 rejimində reanimasiya tədbirləri kompleksi və intensiv terapiya xidmətləri göstərilir. Şöbənin tibb heyəti zəngin təcrübəyə malik, ağır xəstələrə qayğı göstərmək üçün reanimasiya və intensiv terapiya sahəsində ixtisaslaşmış yüksəkixtisaslı mütəxəssislərdən ibarətdir. Əməliyyatxana, Anesteziologiya və Reanimasiya şöbəsinin rəisi, anestezioloq-reanimatoloq Tural Sadıqov və şöbənin anestezioloq-reanimatoloqları Xəyal Məmmədov, Mehdi Əliyev, Rəşad Nəsirli, Şahin Mazanov, Sevda Quliyeva, Könül Həsənova və Günel Cəfərova hər bir pasiyentə diqqət və şəfqətlə yanaşaraq, 24/7 rejimində qayğı göstərir, intubasiya, süni tənəffüs, hemodinamik monitorizasiya, kompleks reanimasiya tədbirlərini, eləcə də cərrahi əməliyyat sonrası baxımdan tutmuş, ağır infeksiyalar, şok, poliorqan çatışmazlığı və digər həyati riskli vəziyyətlərdə xəstələrin sağlamlığını qorumaq və bərpasını sürətləndirmək üçün fəaliyyət göstərirlər.

Şöbə müasir və texnoloji avadanlıqlarla təchiz olunub, bu da dünyada qəbul olunmuş standartlar və anestezioloji protokollar əsasında istənilən növ anesteziyanın həyata keçirilməsinə, habelə xəstənin çəkisinə, döş qəfəsi quruluşuna, ağciyərlərinin funksional vəziyyətinə uyğun tənəffüs parametrlərini seçmək mümkündür. Bu da öz növbəsində xəstənin tam komfortunu və qısa bir müddət ərzində reabilitasiyasını təmin edir. Şöbədə mürəkkəb cərrahi əməliyyatlardan sonra reanimasiya tədbirlərinə ehtiyacı olan xəstələrin vəziyyətinin fasiləsiz monitorinqi həyata keçirilir. Müasir oksigen funksiyası monitorları vasitəsilə arterial təzyiqin invaziv və qeyri-invaziv ölçülməsi, nəbz, mərkəzi venoz təzyiq, qaz mübadiləsi, bədən temperaturu, orqan fəaliyyətləri və qan oksigenlə zənginliyi kimi həyati vacib funksiyalar daim nəzarət altında saxlanılır. Cərrahi əməliyyatlardan sonra reanimasiya tədbirlərinə ehtiyacı olan xəstələrə nəzarət və müalicə tətbiq edilir.  Hospitalımızın ən böyük üstünlüyü isə odur ki, hər bir xəstə ağırlıq dərəcəsindən asılı olmayaraq - 24/7 rejimində tam təhlükəsiz və yüksək peşəkarlıqla reanimasiya şöbəsinə qəbul edilərək, sağlamlığı üçün etibarlı və şəfqətli tibbi xidmət alır.



***Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi  Dilarə Zamanova***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 3000**